# Səməd Vurğunun həyat və yaradıcılığında Quba dövrü

*Nadir istedadlar yetişir, ancaq,*
*Səndən nə gəlməyib, nə gəlməyəcək.*

**(O.Sarıvəlli)**

**Ustad şairimiz Səməd Vurğun həyatı boyu dərin, işıqlı fikir və parlaq, ürək qızdıran söz ovunun tilsimində çırpınırdı. Bəzən patrondaş qurşayıb tüfəngli, tulalı təbiətin qoynuna çıxanda da musiqi ahəngli misralarının cağlar gəlişini uzatmaq məqsədi daşıyırdı. Onun üçün ürəyəyatan, qəlb oxşayan hər söz, ifadə ovçunu dağa-daşa salan ceyran misalındaydı.**

Məlumdur ki, cavanlığın ilk illərində şairin sevgi oxu daşa dəymişdi. Odur ki, kövrək ürəkli Səməd də bir yerdə qərar tuta bilmir, ayaqlarının qaçarlığına, daxilindəki fırtınalı dalğaların qanadlarına nə vaxt yükləndiyindən xəbəri olmur. Gözlərini açanda özünü Şahdağın ətəklərində - yaşıl bağlar diyarı Qubada görür.

Yerdəyişmənin ikinci səbəbi o idi ki, Qazaxın Köçəsgər kənd məktəbinin müdiri olan Səməd qəza müəllim konfransında maarif şöbəsinin müdirini və icrakomun sədrini kəskin tənqid etmişdi. O vaxtlar Səmədin böyük qardaşı Mehdixan Vəkilov Quba qəza Maarif Şöbəsinin müdiri işləyirdi. O, sonralar qardaşının Qazaxdan gəlişini xatırlayıb həmyerlisi, müəllim Vəli Dilbaziyə deyirmiş: "Sərt, qarlı-çovğunlu bir qış kabinetdə idim. Birdən Səməd islanıb-donmuş vəziyyətdə qapıdan girdi. Təəccüblə gəlişinin səbəbini soruşdum. Əhvalatı mənə olduğu kimi danışdı. Bir neçə gündən sonra Səmədi Bakıya - Respublika Xalq Maarif Komissarlığına apardım. Orda onun müəllimlər konfransında tənqid etdiyi Qazax Qəza İrakamonun sədri Abdal Usubovu gördük. Buraya gəlişinin məqsədi bəlli idi. Mən onunla görüşdüm və üzr istədim.

A.Usubov:

- Olsun, Səmədin günahını sənə bağışlayıram, - deyib əlimi sıxdı və getdi.

Səməd Qubaya 1926-cı ilin yanvarında gəldi. O vaxtlar Kənd təsərrüfatı texnikumu təxminən ADPU-nun Quba filialınan üzbəüz yerləşən o vaxtkı Elektrik mühərrikləri zavodunun binasında idi. Səməd bu texnikumun müəllimi oldu. İctimai binalar çatışmadığından burada həm də orta məktəb yerləşdirilmişdi.

Texnikumda aqronomluq müəllimi işləyən Bəyalı Bəyalıyev deyirdi: "Mən Susay kənd ibtdai məktəbini bitirib təhsilimi sevimli şairin işlədiyi məktəbdə davam etdirdim. Səməd müəllim bizə coğrafiya və musiqi dərslərini tədris edirdi. Müəllimimizlə qısa vaxtda elə isinib mehribanlaşdıq ki, ona səmimi ürək sirdaşı və əziz dost kimi baxmağa başladıq."

Əlbəttə, şagirdləri şair ürəyinin narahat çırpıntılarını olduğu kimi duya bilməzdilər. Amma onu duyanlar, çətin vaxtda təsəlli verib dözüm, dəyanət bəxş edənlər də az deyildi. Onlardan biri də Alpan kənd məktəbinin müəllimi Zaman Qayıbov olub. Səməd özünün həsrət və intizar duyğuları ilə yoğrulmuş bir buklet şeirini ona bağışlamışdı. Hiss və həyəcanlı anlar həmin şeirlərdə həmişəyaşarlıq tapıb.

*A dostlar, baxınız, bir xəstəyəm mən,*
*Amandır, yetirin o yarə məni!*
*Bu dərdlə qəflətən əgər ölürsən,*
*Siz Allah, qoymayın məzara məni!*

Səməd Vurğun Qubada 1927-ci ilin dekabrından iki ilə yaxın işləmişdir. Buna baxmayaraq vaxtdan çox səmərəli istifadə etmiş və yadda qalan xeyli əsərlər yazmışdır. "Sızıltılarım", "Unut", "Dağlar", "Bizim dağların", "Tərlanım", "Göygöl", "Çiçək", və s. şeirlər həmin illərin məhsuludur.

Səməd qardaşı Mehdixanla bir otaqda qalmağın çətinliyini görüb özünə mənzil axtarmalı olur. S.Vurğun küçəsində 45 saylı evin sakini Rübabə xanım deyirdi: "Səməd şəhərimizdə işləməyə başladığı ilk vaxtlarda baldızım Kubra köhnə Kommunist küçəsindəki mənzilində yaşayırdı. Ailə onun necə ürəyiyumşaq və mərifətli bir insan olmasından ağızdolusu danışardı. Kubragilin evi şəhərin səsli-küylü yerində olduğundan Səməd özünə sakit yer axtarırmış. Odur ki, mənzilini dəyişib, bizim qonşuluğumuza - Kolxoz küçəsindəki Minayə Tanrıqulu qızının 3 saylı evinə köçdü. Səməd ikinci mərtəbənin üç otağından birini kirayələmişdi. Otağın iki pəncərəsi N.Gəncəvi adına istirahət parkına açılırdı. Müəllim - şair gül-çiçəyə



"göz olan" pəncərə qarşısında əyləşib saatlarla xəyal dünyasının ənginliklərində çırpınar, poeziya çələngini hörərdi.

*Açdım önümdəki bir pəncərəni,*
*Alnımı şiddətlə döydü küləklər.*
*Mən seyrə dalırkən dağı, dərəni*
*Uzaqdan gülürdü güllər, çiçəklər."*

Aylar, illər ötdü Kolxoz küçəsi şairin adından təzə ümman oldu. Səməd Qubada məskunlaşdığı illər uzaqlarda qaldı. Amma o, sonralar da bu torpağın, onun adamlarının görüşlərinə həvəslə gələrdi.

1946-cı ildən başlayaraq ömrünün sonunadək qubalılar bir neçə çağırışda S.Vurğunu SSPİ Ali Sovetinə deputat seçmişlər. Şair bu rayona çox vaxt seçicilərlə görüşməyə gəlirdi. 40-cı illər Quba bütün ölkənin, ittifaqın diqqət mərkəzinə çevrilmişdi. Burada ölkədə ən nəhəng tikinti sayılan Samur-Dəvəçi kanalı inşa edilirid. Ölkənin hər yerindən tikintinin qəhrəman əməkçiləri ilə görüşə gələn yazıçı və jurnalistlərin, incəsənət işçilərinin ardı-arası kəsilmirdi. "S.Vurğun da həmin illərdə baş kanalın tikintisinə getmiş və "ləzgi qızı" şeirini yazmışdı.

1940-cı il mayın 6-da tikintisi başa çatmış kanalın açılışı respublikamızda ümumxalq bayramına çevrildi. Çıxış üçün S.Vurğuna da söz verildi. O, "Samur çayı" şeirini əvvəl Azərbaycanca, sonra isə B.Qurviçin tərcüməsində rusca oxudu. Adamlara elə gəldi ki, dinlədikləri şeir deyil, elə Samurun dumduru, coşqun sularının musiqi ahəngli səsidir - çağlayıb oxumağa başlayıb. İzdihamın uzun müddət davam edən alqış səsləri dalğa-dalğa ətrafa yayıldı. Xoşbəxt sənətkar olan Səmədi xalq necə də ürəkdən sevirdi.

1950-ci ilin martında SSPİ Ali məclisinə seçkilər ərəfəsində S.Vurğun yenidən Qubaya gəldi. Hər yerdə onu böyük coşqu ilə qarşılayırdılar. A.Bakıxanov adına Dövlət Dram Teatrı binasında onunla rayon ictimaiyyətinin görüşü keçirildi. Burada yerli qəzetin nəzdində fəaliyyət göstərən ədəbi birliyin üzvləri də çıxış etdilər. Qubalı gənc yazarların şeirləri şair tərəfindən maraqla qarşılandı. Onu da deyək ki, Nügədidə diş texniki işləmiş Əlibala və onun qardaşı Əliabbas Məhərrəmovlar şairin ovçu dostları olublar, 1953-cü ildə S.Vurğun Alpan kəndində seçicilərlə olan görüşün səhərisi "Pobeda"sını Nügədiyə sürdürür və dostlarını götürərək Ağbil kəndi ərazisində qırqovul ovuna gedirlər.

**Səməd Vurğun bir al səhərdi, ürəkləri, gözləri nurlandıran səhər! Özü də təkcə qazaxlıların, qubalıların. . . yox, təkcə Azərbaycan xalqının yox, bütün türk dünyasının şairidir. O, ölkəmizin hüdudlarını aşmış sənətkardır.**

**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi, AYB və AJB-nin üzvü**